<table>
<tr><td rowspan="7">Ümumi məlumat</td><td>Fənnin kodu, adı və kreditlərin sayı</td><td colspan="2">THM 102 Turizmə giriş – 3KU/6 ECTS</td></tr>
<tr><td>Departament</td><td colspan="2">İqtisadiyyat və Menecment</td></tr>
<tr><td>Proqram</td><td colspan="2">Bakalvr</td></tr>
<tr><td>Semestr</td><td colspan="2">2024/2025-ci tədris ilinin payız semestri</td></tr>
<tr><td>Müəllim</td><td colspan="2">Polad Orucov</td></tr>
<tr><td>E-mail</td><td colspan="2">polad.orujov@khazar.org</td></tr>
<tr><td>Otaq/saat</td><td colspan="2"></td></tr>
<tr><td>Ön şərtlər</td><td colspan="3">Yox</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="3">Azərbaycan</td></tr>
<tr><td>Məcburi/seçmə</td><td colspan="3">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və kurs materialları</td><td colspan="3">Əsas vəsait:<br>Nərmin Musayeva, Səbinə Yadullayeva. Dərs vəsaiti. Bakı - 2021,<br>Əlavə vəsaitlər: UNWTO statsitik materialları; Dövlət Turizm Agentliyinin materialları; Turizmin əsasları, dərslik, Bakı - 2015; Turizm Destinasiyalarının İdarəedilməsi. Bülent Himmetoğlu, İşıl Keskin Şahan, Pərvanə İsmayılova, Arzu Hüseyn, Nailə Musayeva.<br>Tourism Management 6th edition, Routledge, 2019, by Stephen J. Page;</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="3">Turizmin iqtisadi, sosial və humanitar əhəmiyyəti, biznes sahəsi kimi onun sürətli inkişafı, yoxsulluğun azaldılmasında onun müstəsna rolu, dünyanın bir sıra ölkələrinin əsas gəlir mənbəyi olması və s. barədə gələcək turizm mütəxəssislərinə doğru, düzgün və müfəssəl bilgilər verilir. Turizm sahəsinin dünya iqtisadiyyatında əhəmiyyətli yerə malik olması, ətraf mühitin qorunmasının, ekoloji tarazlığın önəmli olması xüsusilə vurğulanır. Eyni zamanda dünyanın, o cümlədən vətənimizin əsas turizm bölgələri barədə məlumat verilir. Tələbələrə turizmin inkişafının ölkələr arasında iqtisadi əlqalərinin yaradılması ilə bərabər sülhməramlı missiyaya malik olması aşılanır. “Turizmə giriş” kursunun tədrisi zamanı tələbələr onlara verilmiş tapşırıqlar əsasında regionların turizm potensialı barədə material toplayır və auditoriya qarşısında təqdim edirlər.</td></tr>
<tr><td>Kursun məqsədi</td><td colspan="3">Kursun məqsədi turizm barədə ilkin məlumatların alınması, turizm haqqında məntiqli fikirlərə nail olunmasıdır. Eyni zamanda turizm sənayesinin dünya iqtisadiyyatında mühüm rol oynamasının tələbələrə çatdırılmasıdır. Fənni öyrənməklə tələbə turizm sektorunda ən vacib anlayışların və terminlərin mənasını başa düşməli; turizmin əsas növlərini və onların özünəməxsus xüsusiyyətlərini təsvir etməli; sənayesinin, habələ turizmlə əlaqəli sahələrin funksiyalarını izah etməli; turizm sahəsində mövcud olan etibarlı məlumat mənbələrini müəyyən etməli və onlardan istifadə etməlidir.</td></tr>
<tr><td>Tədris öyrənmə nəticələri</td><td colspan="3">Tədris semestrinin sonunda tələbələr:<ul><li>turzim sahəsində əsas anlayışlar və terminlərin mənasını başa düşür;</li><li>turizm məkanları barədə məlumatlı olur;</li><li>turizm ehtiyatları və infrastrukturu barədə bilgilərə sahib olurlar;</li><li>turizm məhsulu, ölkəmizin əsas turizm marşrutları barədə bilgilərə sahib olurlar;</li><li>turizm növləri və onların xüsusiyyətlərini təsvir edir;</li><li>turizm formalarını təsvir edir;</li><li>turizmlə əlaqəli sahələrin funksiyalarını izah edir;</li><li>turizmlə bağlı məlumat mənbələrini müəyyən edir və onlardan istifadə edir;</li><li>“Turizmə giriş” kursunu mənimsəməklə tələbələr növbəti semestrlərdə onlara tədris ediləcək fənlərə hazırlıqlı olurlar.</li></ul></td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Quiz</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup təcrübəsi/təqdimat</td><td>x</td></tr>
<tr><td colspan="2">Mühazirə</td><td>x</td></tr>
<tr><td colspan="2">Seminar / Keys təhlillər</td><td>x</td></tr>
<tr><td rowspan="3">Qiymətləndirmə</td><td>Metodlar</td><td>Tarix/son tarix</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahan</td><td>Elan ediləcək</td><td>30</td></tr>
<tr><td>Dərsə davamiyyət</td><td></td><td>5</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | **Dərsdə aktivlik** | | 5 |
| | **Quiz (2)** | 7-ci və 12-cü həftələr | 10 |
| | **Qrup təqdimatı** | 14-15-ci həftələr | 10 |
| | **Final imtahan** | Elan ediləcək | 40 |
| **Qaydalar** | **Davamiyyət:** 25% iştirak həddini aşan tələbələrə final imtahanında iştirak etməyə icazə verilməyəcəkdir. Dərsə 15 dəqiqə gec gələn tələbələrə qayıb yazılacaq və dərsdə iştirakına icazə veriləcək.<br>**Aktivlik:** Tələbənin müzakirələrdə iştirakına görə, eyni zamanda verilən tapşırıqlara hazırlıqlı gəldiklərinə əsasən qiymətləndirmə aparılacaq.<br>**Quiz:** Tələbələrin əhatə olunan mövzular baxımından biliklərini qiymətləndirmək üçün 2 (iki) yazılı quiz keçiriləcəkdir. Quizlərin keçirilməsinin əsas məqsədi tələbələrin mühazirələrə diqqətini cəlb etmək və bir neçə növ nəzəri və praktiki sualların həllində tələbələrin təcrübəsini təmin etməkdir.<br>**Qrup təqdimatı:** Tələbələr 2-4 nəfərlik qruplara bölüşdürülür və onlara tapşırıqlar verilir. Tapşırıqların yerinə yetirilməsi zamanı çap materiallarından, elektron mənbələrindən istifadə etmək imkanı olacaq. Əsas məqsəd – verilmiş tapşırığa komanda halında düzgün cavabın tapılmasıdır; komandada işləmək bacarığının öyrənilməsidir. Qrup təqdimatlarının təqdim edilməsinə görə 10 bal tədrisin son həftəsində, final imtahanından əvvəl yazılacaqdır.<br>**Plagiarizm:** başqa şəxsin, ideya və fikirlərini bu və ya başqa formada özününkü kimi qələmə verilməsi və çatdırılmasıdır. Plaqiarizm birmənalı olaraq qadağandır və Universitet üzrə qəbul olunmuş qaydalar əsasında tənzimlənir. | | |

**Cədvəl**

| Həftə | Tarix | Mövzu | Mənbə |
|---|---|---|---|
| 1 | 19.09.24 | “Turizmə giriş” kursunun predmeti və vəzifələri | I Fəsil |
| | | Turizmin formaları, növləri və tiplərinin təsnifatı | I Fəsil |
| 2 | 26.09.24 | Turizmin inkişaf tarixi | II Fəsil |
| | | Turizm terminlərinin izahı | UNWTO materialları |
| 3 | 03.10.24 | Turizmə təsir edən amillər | III Fəsil |
| | | Turların və marşrutların təsnifatı | III Fəsil |
| 4 | 10.10.24 | Dünya turizm regionları | III Fəsil |
| | | Turizmin sosial-iqtisadi əhəmiyyəti | IV Fəsil |
| 5 | 17.10.24 | Turizm bazarı anlayışı, xüsusiyyətləri və funksiyası | IV Fəsil |
| | | Turizm və məşğulluq | IV Fəsil |
| 6 | 24.10.24 | Turizm sənayesi | VI Fəsil |
| | | Turizm fəaliyyət formaları | VI Fəsil |
| 7 | 31.10.24 | Ekskursiyalar və onların təşkili xüsusiyyətləri | VI Fəsil |
| | | **Quiz 1** | UNWTO materialları |
| 8 | 07.11.24 | Turoperatorlar və turagent fəaliyyətinin xüsusiyyətləri | VII Fəsil |
| | | Turizm məhsulu | VIII Fəsil |
| 9 | 14.11.24 | Turizmdə xidmətin təqdimatı | VIII Fəsil |
| | | Turizm ehtiyatları: təbii ehtiyatlar | IX Fəsil |
| 10 | 21.11.24 | Turizm ehtiyatları: antropogen ehtiyatlar; etnoqrafik ehtiyatlar | IX Fəsil |
| | | Turizm ehtiyatları: turizm infrastrukturu | IX Fəsil |
| 11 | 28.11.24 | **Aralıq imtahan** | |
| 12 | 05.12.24 | Beynəlxalq turizm təşkilatları | X Fəsil |
| | | **Quiz 2** | UNWTO materialları |
| 13 | 12.12.24 | Azərbaycanın turizm bazarının strukturu və xüsusiyyətləri | V Fəsil |
| | | Qrup təqdimatı | www.tourism.gov.az |
| 14 | 19.12.24 | Azərbaycanın turizm bölgələri və mövcud turizm marşrutları | IX Fəsil |
| | | Qrup təqdimatı | www.tourism.gov.az |

| | | | |
|---|---|---|---|
| 15 | 26.12.24 | Azərbaycan Respublikasında turizmin potensial imkanları | IX Fəsil<br>www.tourism.gov.az |
| | | Keçilmiş mövzuların müzakirəsi | |
| | | **Final imtahan** | |

Smestr ərzində mövzuların qrafiki və aralıq imtahanın tarixi zərurətə uyğun olaraq dəyişdirilə bilər